Azərbaycan.-2024.- 31 yanvar, № 20.- S.11.

# Laçına köç davam edir






Zəfərlə nəticələnən 44 günlük Vətən müharibəsinin ardından işğaldan azad edilmiş ərazilərimizə keçmiş məcburi köçkünlərin qayıdışının təmin olunması dövlətimizin əsas prioritetlərindəndir.

Böyük qayıdışın reallaşması üçün isə işğaldan azad edilmiş torpaqlarımızda yaşayış məntəqələrinin sürətli bərpası, əhalinin sosial müdafiəsinin və məşğulluğunun təmin olunması vacib şərtlərdir.

İkinci Qarabağ müharibəsindən dərhal sonra başladılan məqsədyönlü və genişmiqyaslı işlər sayəsində Qarabağ və Şərqi Zəngəzurda əhalinin dayanıqlı məskunlaşması təmin edilir. Keçmiş məcburi köçkünlərin doğma yurda qayıdışı ilə bağlı qarşıya qoyulan vəzifələr uğurla icra olunur.

## "Bundan sonra gözəl, firavan günlərimiz daha çox olacaq"

Böyük qayıdışın Laçın salnaməsi davam edir. Dünən Laçın şəhərinə növbəti köç karvanı yola salınıb. Respublikanın müxtəlif ərazilərində müvəqqəti məskunlaşmış 23 ailə - 72 nəfər doğma yurduna qovuşub.

Laçın şəhərinə ilk qayıdış karvanı ötən ilin mayında baş tutmuşdu. Qısa müddətdə şəhərin sakinlərinin sayı 431 nəfərə çatmışdı.

Uzun illərdir həsrətini çəkdiyi el-obasına qovuşmağın sevincini yaşayan Laçın sakini İsmət Abbasov deyib ki, bundan sonra gözəl, firavan günlərimiz daha çox olacaq: "Allaha çox şükür ki, haqq-ədalət öz yerini tapdı, doğma yurd həsrətimiz sona çatdı. Buna səbəb olan, torpaqlarımızı işğaldan azad edən Azərbaycan Ordusuna təşəkkür edirəm, onlarla qürur duyuram".

Keçmiş məcburi köçkün Qərib Səlimov bildirib ki, Laçına qayıtdığı üçün sevincinin həddi-hüdudu yoxdur: "Hisslərimi sözlərlə ifadə etmək mümkün deyil. Biz illərdir bu günü gözləyirdik. Nəhayət ki, bu gün elimə qovuşdum".

## Beş mindən artıq sakin əzəli yurduna qovuşub

Ötən il azadlığına qovuşmuş ərazilərimiz quruculuq işlərinin yüksək səviyyədə həyata keçirilməsi ilə yadda qalıb. Əzəli yurdlarımızda ardıcıl və məqsədyönlü şəkildə bərpa-quruculuq işləri aparılır.

Qarabağda və Şərqi Zəngəzurda yeni infrastrukturların yaradılması, sərmayələrin yatırılması və digər mühüm işlər bu ərazilərdə məskunlaşmanın təmin olunması üçün böyük əhəmiyyət kəsb edir. Yeni avtomobil və dəmir yollarının çəkilməsi, hava limanlarının tikilməsi, bütün şəhərlərin baş planlarının təsdiqlənməsi və digər addımlar görülən işlərin sistemli xarakter daşıdığını göstərir.

Böyük qayıdış proqramının birinci mərhələsinin, yəni 2026-cı ilin sonuna qədər Qarabağ və Şərqi Zəngəzurda 140 min insanın daimi məskunlaşması təmin ediləcək. İndiyədək 175 ailə (871 nəfər) Zəngilan rayonunun Ağalı kəndinə, 20 ailə (90 nəfər) Tərtər rayonunun Talış kəndinə, 431 ailə (1627 nəfər) Laçın şəhərinə, 527 ailə (1969 nəfər) Füzuli şəhərinə, 203 ailə (783 nəfər) Laçın rayonunun Zabux kəndinə qayıdıb. Ümumilikdə isə 1356 ailə - 5340 nəfər əzəli yurduna qovuşub.

Ötən il olduğu kimi, bu il də azadlığına qovuşmuş torpaqlarımızda quruculuq işləri yüksək səviyyədə həyata keçiriləcək, keçmiş məcburi köçkünlər əzəli yurdlarına dönəcəklər.

*Ülkər XASPOLADOVA,*
*"Azərbaycan"*